VI Çağırış Milli Məclisin Deputatı

**Vüqar Bayramov**

# İllik Fəaliyyət Hesabatı

***Mart 2022***

---

*İllik fəaliyyət hesabatım, seçicilərimlə həyata keçirdiyim görüşləri, onların çətinliklərinin həllinə dair reallaşdırdığım tədbirləri, eləcə də ölkəmizin inkişafına yönəlik irəli sürdüyüm təklifləri əhatə edir.*

---

## Hörmətli Seçicilərim və Həmyerlilərim,



Bu gün VI çağırış Milli Məclisin fəaliyyətə başlamasından 2 il ötür. Öz fəaliyyətimlə daim seçicilərimin inanımını doğrultmağa, onların üzləşdiyi çətinliklərin həllinə, eləcə də təkliflərimlə ölkəmizin, rayonumuzun inkişafına töhfə vərməyə səy göstərirəm. Həyata keçirdiyim tədbirlərə yönəlik rüblük, illik hesabatlar verərək siz seçicilərimi mütəmadi olaraq məlumatlandırmağı da vəzifəmin ən vacib hissəsi hesab edirəm.

Ötən 1 ildə biz Füzulilər üçün xeyli əlamətdar günlər oldu. Təbii ki, ən yadda qalan və tarixə çevrilən günlərdən biri də Azərbaycan Prezidenti cənab İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tərəfindən Füzuli şəhərinin təməldaşının qoyma mərasimi oldu. Mərasimdə təmsil etdiyim rayonunun Millət vəkili kimi çıxış etmək imkanım oldu. Bu günün füzuli sakinlərinin tarixində ən parlaq və qürurverici gün olduğunu bildirərək, bu möhtəşəm günü bizə qismət etdiyi üçün cənab Prezidentə Füzuli sakinləri adından öz təşəkkürümü bildirdim. Tarixi qələbənin qazanılması, ölkə Prezidentinin hər bir dövlət başçısına qismət olmayan siyasi təmkini, beynəlxalq arenada olan siyasi nüfuzu və hərb meydanında qəbul etdiyi qətiyyətli qərarlar sayəsində mümkün olduğunu bildirdim. Torpaqlarımızı düşmən tapdağından azad edən gənclərin Ümummilli lider Heydər Əliyev məktəbinin davamçıları olduğunu xatırladaraq, bir daha cənab Prezidentə Füzuli rayon sakinləri adından öz təşəkkürümü bildirdim.



İşğaldan azad olunan ərazilərimiz, o cümlədən Füzuli rayonu yeni bərpa və quruculuq mərhələsinə qədəm qoyub. Məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdacağı gün uzaqda deyil.

Ötən bir ildə həm də Milli Məclisin məhsuldar fəaliyyəti ilə yaddaşlarda qaldı. VI çağırış Milli Məclisin son birillik fəaliyyət müddətində həyata keçirdiyim tədbirlərin, eləcə də Sizin müraciətlərinizin nəticəsi ilə bağlı hesabatı diqqətinizə çatdırıram.

# İllik Fəaliyyət Hesabatı

Ötən bir il ərzində də ünvanıma daxil olan hər bir müraciətə həssaslıqla yanaşaraq səlahiyyətlərim daxilində qeyd olunan çətinliklərin həllinə çalışmışam. Ünvanıma həm təmsil olunduğum dairənin seçiciləri, həm də qeyri şeçicilər tərəfindən müraciətlər daxil olmuşdur. Belə ki, ötən bir il müddətində müraciət edənlərin 61 faizi Füzuli rayonundan olan seçicilərimiz, 32 faizi rayonumuzdan kənarda məskunlaşmış həmyerlilərimiz, 7 faizi isə digər vətəndaşlarımızdır.




Müraciətlər adətən rəsmi şəkildə həm Milli Məclis aparatına, həm də Deputat ofisimizə ünvanlanır. Rəsmi olaraq, eləcə də sosial şəbəkələr və telefon vasitəsilə edilən müraciətləri də nəzərə alsaq, ümumilikdə ötən bir il ərzində ünvanıma 1490 müraciət daxil olub. Bunlardan 737 müraciət Milli Məclis aparatına, 753 müraciət isə telefon və sosial şəbəkələrdə daxil olmaqla şifahi şəkildə daxil olmuşdur. Qeyd olunan müraciətlərdən 865-i sosial, 418-i iqtisadi problemlərlə, 207 müraciət isə maddi yardım istəyi də daxil olmaqla digər problemlərlə əlaqədar olmuşdur.




Ötən bir il ərzində pandemiya ilə əlaqədar seçicilərlə görüşlərin təşkilində məhdudiyyətlər olsa da, görüşlər karantin rejimi çərçivəsində üz-üzə və onlayn şəkildə həyata keçirilmişdir.



Belə ki, həm rayon ərazisində, həm də rayondan kənarda məskunlaşmış seçicilərimizlə ümümilikdə 39 görüş keçirilmişdir. Bu görüşlərdə ümumilikdə 581 seçicinin müraciəti dinlənilmişdir. Görüşlərdən 27-si səyyari şəkildə (Bakı şəhəri Qaradağ rayonu, Şirvan şəhəri, Mingəçevir şəhəri, Gəncə şəhəri, Sumqayıt şəhəri, Sabirabad rayonu, Saatlı rayonu, Beyləqan rayonu, İmişli rayonu, Zobucuq qəsəbələri, Fin qəsəbəsi, Qayıdış 1-5 və Qayıdış 6-11 qəsəbələri, Əhmədallar kəndi, Qazaxlar kəndi, Yağlıvənd kəndi, Əhmədbəyli kəndi, Kürdmahmudlu kəndi, Babı kəndi, Arayatılı kəndi, Alxanlı kəndi, 6 görüş isə deputat ofisində) 12-si isə onlayn şəkildə keçirilmişdir. Görüşlərdə iştirak edən hər bir seçicinin müraciətinə diqqətlə yanaşaraq qeyd etdikləri problemlərinin həll olunması məqsədi ilə aidiyyəti strukturlara deputat sorğuları göndərmişəm.



Bu görüşlərdə qeydə alınan müraciətlər arasında çoxluq təşkil edənlərdən biri, köhnə məcburi köçkünlərin doğma yurdlarına qayıdarkən kəndlərinin öz ərazisində bərpası ilə bağlı olmuşdur. Həmin seçicilərin müraciətlərinin müsbət həllinə dəstək olmaq məqsədi ilə Nazirlər Kabinetinə müraciət etmişəm.

Bildiyimiz kimi Füzuli rayonu köhnə təmas xəttinə yaxın ərazidə yerləşir və bu, baxımdan Vətən müharibəsi zamanı düşmənin ağır artileriya atəşinə məruz qalırdı. Ermənilərin təxribatlarına, vandalizminə baxmayaraq, təmsil etdiyim Füzuli rayon sakinləri də digər bölgələrimiz kimi sonadək yüksək vətənpərvərlik, iradə, əzm nümayiş etdirmişdir. Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunu intensiv atəşə tutmasına baxmayaraq, əhali öz evlərini tərk etməmiş və Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına dəstəklədiklərini nümayiş etdirmişlər. Lakin düşmənin müharibə zamanı Füzuli rayonunu ağır silahlardan atəşə tutması nəticəsində xeyli sayda infrastruktura, inzibati obyektlərə, yaşayış binalarına, evlərə, şəxsi təsərrüfatlara ciddi ziyan dəymişdir. Bu ziyanin aradan qaldırılmasına köməklik göstərilməsi ilə bağlı aidiyyəti qurumlara deputat sorğuları göndərmişəm və demək olar ki, ziyan dəymiş seçicilərin problemləri öz həllini tapmışdır.



Bildiyimiz kimi, 2020-ci il 27 sentyabr tarixində başlanan savaşda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz işğalçı Ermənistan üzərində tarixi qələbə qazandı. Düşmənə qarşı qazanılmış qələbədə təmsil etdiyim Füzuli rayonu da şəhidlər vermiş, yüzlərlə vətəndaşımız qazi olmuşdur. Bu baxımdan Füzuli rayonunda da şəhid və qazi ailələrmizi daim diqqət mərkəzində saxlayır və mövcud problemlərini həll etməyə çalışıram. Bununla əlaqədar olaraq  şəhid və qazi ailələrimizin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və qazilərimizin əlilliyinin müəyyən olunması ilə bağlı ünvanıma daxil olmuş müraciətlər əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə deputat sorğuları göndərərək problemlərinin həll olunması istiqamətində dəstək göstərməyə çalışmışam.



Bununla yanaşı, Füzuli rayonunda qazlaşdırılmadan kənarda qalan yeganə ərazinin təbii qaz ilə təmin olunması üçün aidiyyəti quruma müraciətim də müsbət dəyərləndirilib. Belə ki, Füzuli rayonu Qarabulaq düşərgəsi adlanan ərazi təbii qaz ilə təmin olunub və sakinlərin istifadəsindədir. Qeyd edim ki, bundan əvvəl Gecəgözlü yatağı adalanan ərazinin və Horadiz şəhərində yerləşən 2 kommunal binanın qazlaşdırılması ilə bağlı müraciətim də müsbət qarşılanmış və təbii qaz ilə təmin olunmuşdur.



Həmçinin Alxanlı və Şükürbəyli kəndlərinda keçirilən qəbullar zamanı sakinlərin kənd təsərrüfatı sahələrinin inkişafında yaranan çətinliklərlə bağlı ünvanıma müraciətləri daxil olmuşdur. Müraciətdə Şükürbəyli və Alxanlı kəndlərində münaqişə zəminində dağıdılmış və sonradan bərpa olunmuş artezian və su nasosunun qeydiyyata alınmasına köməklik xahiş olunmuşdur. Seçicilərin müraciətini nəzərə alaraq adları çəkilən kənd ərazisində mövcud olan su nasosunun və artezian quyusunun Meliorasiya və Su Təsərrüfatı ASC-nin balansına alınmasına köməklik göstərilməsi ilə bağlı Baş nazir cənab Əli Əsədova müraciət etmişəm.



Qayıdış qəsəbələrində keçirilən qəbul zamanı, seçicilərin içməli suya olan tələbatının ödənilməsində yaranmış çətinliklərlə bağlı da ünvanıma çoxsaylı müraciətlər daxil olmuşdur. Müraciətlərdə qəsəbələri içməli su ilə təmin edən magistral boru xətlərinin və qəsəbəarası su xətlərinin yararsız hala düşməsi və bu səbəbdən qəsəbələrin içməli su ilə təmin olunmadığı bildirilmişdir. Qeyd etdiyim qəsəbələrin içməli suya olan tələbatının ödənilməsi üçün yaranmış problemlərin aradan qaldırılmasına köməklik göstərilməsi məqsədi ilə Azərsu ASC-yə və Nazirlər Kabinetinə müraciət etmişəm.

Ötən ildən etibarən "Füzuli" Futbol Klubu rəsmi olaraq Region Liqasında rayonumuzu təmsil edir. Füzuli hər zaman güclü futboluna görə seçilən rayonlarımızdan olub. Təəssüf ki, 27 illik erməni işğalı Füzuli rayonunda futbolun inkişafına da mənfi təsir göstərmişdir. Futbolu inkişaf etdirmək niyyətində olan klub rəhbərliyi və rayon seçiciləri, "Füzuli" Futbol Klubunun Region Liqasında iştirakında dəstək olunması ilə bağlı ünvanıma müraciət etmişlər. Müraciətlərinə dəstək olmaq məqsədi ilə AFFA rəhbərliyinə müraciət etmiş, maddi və mənəvi dəstək olmağa çalışmışam.



Arayatılı və Mollaməhərrəmli kəndlərində keçirilən görüş zamanı kənd sakinləri tərəfindən ünvanıma daxil olmuş müraciətlərində, əsas məşğuliyyətlərinin heyvandarlıq olduğunu, otlaq sahələrinin sərhəd ərazisində yerləşdiyini, lakin kəndlərindən sərhəd ərazisinə keçid üçün qapı olmadığına görə həmin əraziyə keçmək üçün uzun yol qət etdikləri bildirilmişdir. Kənd sakinlərinin müraciətinin həll olunmasına köməklik göstərilməsi ilə bağlı Dövlət Sərhəd Xidmətinə ünvanladığım müraciət də müsbət cavablandırılıb və keçid üçün açılmış qapı artıq sakinlərin istifadəsindədir.



Qeyd edim ki, son bir il ərzində ünvanıma daxil olmuş şifahi və yazılı müraciətlər əsasında müxtəlif dövlət qurumlarına ümümilikdə 631 deputat sorğusu göndərmişəm ki, bu sorğular əsasında onlarla seçicinin səhiyyə, məşğulluq, sosial və digər sahələr üzrə problemləri öz həllini tapmışdır.

## İrəli sürdüyüm təkliflər

Milli Məclisin 2022-ci il Yaz Sessiyasının ilk iclasında çıxış zamanı qanunvericilik bazasının gücləndirilməsi ilə bağlı bir sıra təkliflərimi təqdim etdim. Sosial təminat məsələlərin prioritet olduğunu və 2022-ci ildə cənab Prezidentin göstərişi ilə yeni sosial paketin tətbiq olunduğunu nəzərə aldıqda "Sosial Rifah" haqqında qanun layihəsinin hazırlanması və qəbulu məqsədəuyğun olacağını bildirdim. Bu sosial sahədə qanunvericiliyin sistemləşməsinə və ünvanlılığın təmin olunmasına pozitiv təsir göstərə biləcəyini bildirdim.

Həmçinin, "Bank Məcəlləsinin" qəbulu da məqsədə uyğun olacağını təklif etdim. Banklar hələ də istehlak kreditləşməsinə daha çox meyllənirlər və faiz dərəcələri yüksək olaraq qalmaqdadır. Bu baxımdan, bank sektorunda qanunverici bazanın məcəllə formasında sistemləşməsinə ehtiyac var. Avropa Birliyində istehlak kreditləri ilə bağlı qanunvericilik aktlarının sistemləşdirildiyini nəzərə alsaq bu yanaşmanın bank sektorunda hüquqi bazanı daha da möhkəmləndirə biləcəyini bildirdim.



Digər tərəfdən Milli Məclisdə "Əmək Pensiyaları haqqında" Qanuna edilən dəyişikliklər zamanı komitə müzakirələrində çıxışımda pensiyaların indeksasiya sisteminin təkmilləşdirilməsi üçün təkliflərimi təqdim edim. Belə ki, hazırda indeksləşmədə iki göstəricidən (orta aylıq əmək haqqının artım səviyyəsi və inflyasiya göstəricisi) istifadə edilir. Pensiya məbləği əvvəlki ildə orta aylıq nominal əmək haqqında artım tempinə, pensiya kapitalı isə infilyasiya göstəricisinə indeksasiya olunur. Əmək pensiyaları indeksasiya edilən zaman hər iki göstəricinin "dəyişən vəribl" olaraq nəzərə alnmasının məqsədəuyğun olacağını bildirdim. Yəni, əgər orta aylıq əmək haqqıdakı artım infilyasiyadan daha çoxdursa o zaman maaşa indeksasiya olunsun. Amma əgər infilyasiya göstəricisi əmək haqqı artımlarından daha çoxdursa, o halda pensiyalar qiymət artımlarındakı faizə indeksasiya olunsun. Yəni, indeksasiyanın bu iki göstəricidən ən yüksək faizli nəzərə alınmaqla edilməsi daha uyğun olar. Bu halda, əmək pensiyaları indeksasiya nəticəsində daha çox artar və infilyasiya təsirlərini minimumlaşdırar. Əmək pensiyalarında indeksasiya artımlarının reallığı və infilyasiya təsirlərinin minimumlaşdırılması baxımdan təklif olunan mexanizmin tətbiqi daha məqsədəuyğun olardı.



Milli Məclisin Plenar İclasında "2022-ci ilin Dövlət Büdcəsi" layihəsinin müzakirəsi zamanı çıxışımda növbəti ilin fiskal sənədinin bir sıra məqamlarına diqqət ayırıb təkliflərimi səsləndirdim. Çıxışım zamanı əvvəlki müzakirələrdə səsləndirdiyim təkliflərə əlavə olaraq bir sıra yeni təkliflər də təqdim etdim.

Milli Məclisin komitə büdcə müzakirələrində sosial sfera ilə bağlı təkliflərimdən biri də pensiya kapitalından digər məqsədlər üçün istifadə edilməsi ilə bağlı oldu. Belə ki, mövcud qaydalara əsasən, vətəndaşlarımız öz yığımlarından yalnız pensiya almaq üçün istifadə edirlər. Amma bir sıra ölkələrdə pensiya kapitalından digər məqsədlər üçün istifadə etmək hüququna malikdirlər. Məsələn, bəzi ölkələrdə yığımların üçdə biri kommunial xidmətləri ödəmək, kredit qaytarmar və s. istiqamətlər üçün istifadə edilir. Əgər vətəndaş tələb olunan pensiya kapitalını toplayıbsa o zaman ona əlavə vəsaitinin 30 faizinin başqa məqsədlər üçün istifadə etməsi məqsədəuyğun olacağını bildirdim. Bu yığımlara marağa artıra və qeyri-rəsmi məşğulluğun daha da leqallaşdırılmasına səbəb ola bilər.

Milli Məclisdə komitə büdcə müzakirələri zamanı irəli sürdüyüm təkliflərdən biri də vətəndaşlara vaxtından əvvəl pensiyaya çıxmaq hüququnun verilməsi idi. Belə ki, bir sıra hallarda vətəndaşlar kifayət qədər yüksək əmək haqqısı olan sektorda (məsələn, neft, maliyyə və s.) çalışır və nisbətən böyük pensiya kapitalına malik olur. Amma pensiya kapitalından istifadə etmək üçün pensiya yaşının (hazırda kişilər üçün 65, qadınlar üçün 62 il 6 ay) gözləmək məcburiyyətində qalır. Təklifim isə həmin şəxslərə vaxtından əvvəl pensiya çıxmaq hüququnun verilməsi və onların öz kapitallarından daha uzun müddət istifadə imkanlarının tanıdılmasıdır.



Büdcə müzakirələri zamanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu istiqamətdə müzakirələrin davam etdiriləcəyini bəyan etdi. Deməli, Azərbaycanda pensiya yaşı tamam olmadan pensiyaya çıxmaq imkanı reallaşa bilər.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin keçirilən iclasında Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin müzakirəsi zamanı çıxışımda bir sıra təklif olunan dəyişikliklərə yenidən baxılması ilə bağlı təkliflərimi qeyd etdim.



Çıxışım zamanı 3 il istifadə müddətinin 5 il ilə əvəz olunması və eləcə də nisbətən aşağı mühərrikli yeni avtomobillərin idxalı zamanı aksiz dərəcəsinin, verginin azaldılmasını təklif etdim. Avtomobillərin idxalı ilə bağlı vergilərin yüksək olması Azərbaycanda avtomobil parkının köhnəlməsinə gətirib çıxarır: "Avtomobil parkının köhnəlməsinin qarşısını almaq məqsədi ilə yeni istehsal olunan avtomobillərin idxal xərclərinin azaldılması, vergilərə yenidən baxılmasının məqsədəuyğun olacağını bildirdim.



Həmçinin Mərkəzi Bank tərəfindən kredit tarixçəsi üzrə “qara siyahıya” yenidən baxılmasını təklif etdim. Milli Məclisin keçirilən plenar iclasında çıxış edərək pandemiya nəticəsində kredit tarixçiləri pisləşən vətəndaşların adlarının “qara siyahıya” salınmamasını təklif etdim. Bildirdim ki, Mərkəzi Bankın təsdiq etdiyi tədbirlər planında banklara pandemiya səbəbindən ödənişdə yubanmaları olanların kredit tarixçəsinin pisləşdirməməyi tövsiyə etmişdir. Amma bu planda güzəşt müddəti həmin il sentyabrın 30—dək müəyyənləşmişdi. Pandemiya davam etdiyini ancaq tədbirlər planında müəyyənləşdirilən zamanın başa çatdığını bildirdim. Həmin müddətə yenidən baxılmasını və pandemiya davam edən müddətdə bu səbəbdən yubanmaları olan vətəndaşların kredit tarixçəsinin pisləşdirilməməsini təklif etdim.

Həmçinin, 2015-ci ildə manatın məzənnəsinin dəyişməsi nəticəsində həm sahibkarlar, həm vətəndaşlarımız arasında kreditlərini ödəyə bilməyənlər oldu. Daha sonra cənab Prezidentin tapşırığı ilə həmin şəxslərin problemli kreditlərinə kompensasiya ödənildi. Bu baxımdan təklif etdim ki, devalvasiya səbəbindən kredit tarixçəsi pisləşmiş vətəndaşlara da oxşar güzəştlər verilsin və onların da adları pisləşmiş kredit tarixçəsi siyahısından çıxarılsın. Bu həmin vətəndaşlarımızın yenidən kreditlərdən faydalanmasına imkan yarada bilər.

## Beynəlxalq fəaliyyət

Milli Məclisin Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Malayziya Parlamenti Nümayəndələr Palatasındakı Malayziya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə qrupun üzvləri ilə onlayn videokonfrans formatında görüş keçirildi. Görüşdə Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli və Malayziya Parlamenti Nümayəndələr Palatasının Sədr müavini Dato Hacı Mohd Rəşid bin Hasnon, həmçinin Azərbaycanın Malayziyadakı səfiri İrfan Davudov iştirak ediblər. Əli Hüseynli Azərbaycan parlamentinin Sədri Sahibə Qafarovanın salamlarını görüş iştirakçılarına çatdırıb və uğurlar arzuladı. Dost Malayziya ilə parlamentlərarası əməkdaşlığın inkişafına böyük önəm verdiyimizi bildirən birinci vitse-spiker qarşılıqlı səfərləri aktivləşdirməyin, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı inkişaf etdirməyin, dostluq qrupları arasında peşəkar əlaqələri yaxşılaşdırmağın vacibliyini qeyd etdi. Milli Məclisin birinci vitse-spikeri Vətən müharibəsi zamanı Malayziyanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bərpasına verdiyi siyasi dəstəyi yüksək qiymətləndirdiyimizi vurğuladı. Videokonfransda Malayziya Parlamenti Nümayəndələr Palatasının Sədr müavini Dato Hacı Mohd Rəşid bin Hasnon təmsil etdiyi qurumun parlamentarları adından bu görüşün təşkilinə görə Milli Məclisin Malayziya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupuna təşəkkürünü bildirdi, Azərbaycana dəvətə görə minnətdarlıq etdi. Azərbaycan xalqının Zəfər bayramı - 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin birinci ildönümü münasibətilə dövlətimizə və xalqımıza təbriklərini çatdırdı. Dato Hacı Mohd Rəşid bin Hasnon sülh və qarşılıqlı etimad əsasında ikitərəfli əlaqələrin qurulmasına hər zaman dəstək verdiklərini, xüsusilə Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduqlarını qeyd etdi. Ölkələrimiz arasında uzun müddətdən bəri iqtisadi əlaqələrin mövcudluğundan, neft-qaz sahəsindəki səmərəli əməkdaşlıqdan məmnunluqla bəhs etdi. Ermənistanın işğal dövründə dağıtdığı bölgələrdə hazırda Azərbaycan dövlətinin apardığı quruculuq işlərindən söz açaraq məscidlərin və dini abidələrin bərpasında Malayziya qurumlarının da iştirak etmək istədiklərini diqqətə çatdırdı. Onlayn görüşdə Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olaraq ölkələrimiz arasında siyasi, iqtisadi və strateji münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etdim. Bildirdim ki, 44 günlük Vətən müharibəsindəki Zəfərimizdən sonra regionda yeni reallıq formalaşıb. Azərbaycanın haqq işinə dəstək verən ölkələr işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma prosesində iştirak edirlər, növbəti mərhələdə isə

investisiya qoyuluşlarını həyata keçirəcəklər. Təbii ki, Azərbaycan ərazi bütövlüyünün bərpası kimi haqq işində ona dəstək vermiş Malayziyanın da şirkətlərinin işğaldan azad olunmuş Qarabağa və ətraf bölgələrə investisiya qoymasında maraqlıdır. 2020-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin iki dəfə artdığını qeyd edərək həm ticari, həm də iqtisadi əlaqələrin inkişafı üçün daha böyük potensialın mövcud olduğunu bildirdim. Azərbaycan Prezidentinin rəhbərliyi ilə iqtisadiyyatın diversifikasiyası sahəsində həyata keçirilən dərinləşmiş islahatlardan söz açıb, qeyri-neft sektorunun inkişaf etdirilməsi və neftdən asılılığın aradan qaldırılması istiqamətində son illər əldə olunmuş uğurlardan danışdım. Bildirdim ki, hazırda ÜDM-in 70 faizə qədəri qeyri-neft sektorunun payına düşür. Bütövlükdə ölkələrimiz arasında münasibətlərin dinamik inkişaf etdiyini vurğulayaraq qeyd etdim ki, Malayziya da neft ölkəsidir, sözügedən islahatlarla bağlı Azərbaycan nümunəsinin tətbiq olunması və təcrübə mübadiləsinin genişləndirilməsi istiqamətində əməkdaşlığımız da faydalı olar. Videokonfransda Malayziya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə qrupun üzvü Mamun bin Sulaiman Azərbaycana səfəri səbirsizliklə gözlədiklərini, ölkəmizlə yaxından tanış olmaq istədiklərini bildirib. Həmçinin azərbaycanlı həmkarlarını Malayziyada görmək arzularını diqqətə çatdırıb. Parlament əlaqələri ilə yanaşı, ticarət, investisiya və digər sahələrdə əməkdaşlığa böyük maraq göstərdiklərini vurğulayıb. Onlayn görüşdə Malayziya deputatlarını maraqlandıran suallara cavab verildi. Yekunda Azərbaycanın Malayziyadakı fövqəladə və səlahiyyətli səfiri İrfan Davudov fikirlərini bölüşdü.

Videokonfransda Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Aydın Hüseynov, Elşən Musayev və Cəbi Quliyev də iştirak ediblər.



Həmçinin İstanbul şəhərində 7-ci Qara Dəniz Beynəlxalq Konfransının açılış mərasimində Azərbaycanın Vətən Müharibəsindəki Zəfərindən sonra regionda formalaşan yeni düzən və xüsusən kommunikasiyaların paralel açılmasının faydası barədə çıxış etdim. Aparılan iqtisadi təhlil və ekonometrik qiymətləndirmələr göstərir ki, kommunikasiyaların paralel bərpası regionda dayanıqlı sülh və iqtisadi əməkdaşlıq platforması baxımından çox vacibdir. Zəngəzur Dəhlizi 1.1 tirlyon dollar Ümumi Daxili Məhsulu olan Türk Dünyasını quru nəqliyyat vasitəsi ilə birləşdirməklə yanaşı həmçinin regionda yerləşən ölkələr üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan regionda sülhün qorunub saxlanmasında maraqlı ölkədir və mövcud iqtisadi resursları işğaldan azad olunun torpaqları daha qıza zamanda bərpa etməyə imkan verəcəkdir. Konfransda 30 ölkəni təmsil edən nümayəndələr iştirak etdi.



## KİV-də aktivlik

Təmsil etdiyim Füzuli rayonunun, ümumilikdə ölkəmizin iqtisadi, sosial inkişafına yönəlik təklif və tövsiyələrimin cəmiyyətimizə çatdıırılmasında sosial media mühüm rol oynayır. Seçicilərimlə ünsiyyətimdə isə sosial media əhəmiyyətli yerə sahibdir. Kütləvi informasiya vasitələrində (KİV) fikir və təkliflərimin istinad və paylaşımı baxımından məlumat göstəricilərinə gəldikdə, statistika bu şəkildədir.




Qeyd etmək istərdim ki, əksər təkliflərimizin konseptual əhəmiyyətini nəzərə alaraq eyni təkliflər çoxlu sayda media orqanlarında yayımlanıb.

Hörmətli seçicilərim, nəzərinizə çatdırım ki, fəaliyyətimə yönəlik rüblük və illik hesabatlarımla mütəmadi olaraq sizi məlumatlandıracağam.

Müraciətlərinizlə bağlı məlumat əldə etmək üçün əlaqə:

**Deputat köməkçisi - Eltun Ağakişiyev**
**Email:** 84sayli_sd@meclis.gov.az
**Tel: +994502268002**